**AZƏRBAYCAN RESPUBLİKASI**

**BAKI ŞƏHƏRİ BİNƏQƏDİ RAYONU İCRA HAKİMİYYƏTİ BAŞÇISININ**

**SƏRƏNCAMI**

**№ 19** **5 fevral 2016-cı il**

**Binəqədi Rayon İcra Hakimiyyətinin Apellyasiya Şurasının yaradılması haqqında**

"Azərbaycan Respublikasının mərkəzi və yerli icra hakimiyyəti orqanlarında Apellyasiya Şuralarının yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 3 fevral 2016-cı il tarixli Fərmanının icrası və Binəqədi rayonu ərazisində sahibkarlıq fəaliyyəti göstərən fiziki və hüquqi şəxslərin şikayətlərinə baxılması sahəsində şəffaflığın və obyektivliyin təmin edilməsi, bu sahədə şəxslərin hüquqlarının və qanunla qorunan maraqlarının müdafiəsi məqsədi ilə "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"nin 3.5.1-ci bəndini rəhbər tutaraq

**Qərara alıram:**

1. Binəqədi Rayon İcra Hakimiyyətinin Apellyasiya Şurası yaradılsın.
2. Binəqədi Rayon İcra Hakimiyyəti başçısının birinci müavini İlqar Süleymanov Apellyasiya Şurasının sədri təyin edilsin.
3. Apellyasiya Şurasının sədri İlqar Süleymanova tapşırılsın ki, Şura üzvlərinin və Katibliyin tərkibi barədə təkliflərini hazırlayıb təsdiq edilməsi üçün Rayon İcra Hakimiyyətinin başçısına təqdim etsin.
4. Sərəncamın icrasına nəzarəti öz üzərimdə saxlayıram.

**Xaləddin İsgəndərov**

**ƏSLİ İLƏ DÜZDÜR**

**Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri** **Elnur İmanov**